**Qəniyev E.** Cəsur komandir // Azərbaycan : - 2024. - 10 iyul. - **№ 142**. - S. 10.

Yolumuz "Qarabağ" ordenli şəhid mayor Rəhim Hüseynovun ata yurdu Zərdab rayonunun Gəlmə kəndinədir.
Bu kənddə yaşayan Qədir kişinin evini tapmaqda elə də çətinlik çəkmədik. Küçə qapısındakı dirəyə bərkidilmiş üçrəngli müqəddəs bayrağımız adama gəl-gəl deyirdi. Qapını üzümüzə açan yeniyetmə oğlan əlini başı üzərinə qaldırıb hərbi qaydada salam verərək özünü təqdim etdi: "Hikmət! Rəhimin böyük oğluyam". Hikmətin yaxınlığında dayanan ortancıl qardaşı da əlini uzadıb astaca dillənir, "Rüfət". Həyətdə velosiped sürən oğlan uşağını göstərən Hikmət "Kiçik qardaşımın da adı "Fikrətdir" deyir.
Söhbətə Hikmət körpü salır: "Xırdalanda Elza nənəmlə birlikdə yaşayırıq. "Era" Liseyində oxuyuruq. İmkanımız olan kimi atamızın doğulub böyüdüyü kəndə gəlirik. Atam deyərdi ki, bu dünyanın iki müqəddəsi var: biri Ana, biri Vətən. Biri ilk, biri son ünvanımızdır. Vətəni də anan kimi sevərək qorumalısan. Atam anasını da, Vətəni də canından çox sevirdi. Vətəni qorumağa gedəndə dedi ki, evin kişisi sənsən, ailəmiz sənə əmanət. Atam getdi və özü vətənin bir parçası oldu. Bizi vətənə, anamızı isə bizə əmanət etdi. Amma atamın əmanətini qoruya bilmədim. Anam atamın cənnətə qovuşduğunun bir ili tamam olan gün bizi əbədi tərk etdi. Bu da bir qədərdir... Görünür, atamızı bizdən çox sevirmiş... Bizim yox, atamızın yanında olmağı seçdi".
Mayor Rəhim Qədir oğlu Hüseynov 1 iyul 1984-cü ildə Zərdab rayonunun Gəlmə kəndində anadan olub. 1998-2001-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2001-2005-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə təhsil alıb. 2005-2006-cı illərdə Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində xüsusi kurs keçərək ingilis, rus, erməni dillərini mükəmməl öyrənib. Rəhim Hüseynov Azərbaycan Silahlı Qüvvələrinin Sülhməramlı Əməliyyat İmkanları Konsepsiyası (OCC Bn) taborunun komandiri kimi dünyanın bir sıra ölkəsində ölkəmizi ləyaqətlə təmsil edib. 2020-ci ildə NATO-nun Əfqanıstan İslam Respublikasının Həmid Kərzayi adına Beynəlxalq Hava Limanının qorunmasında iştirak edən "Qətiyyətli dəstək", "Qeyri-döyüş" missiyasını yerinə yetirən Azərbaycan sülməramlı taborunun komandanı Rəhim Hüseynov NATO Mertorious Service ilə təltif olunan ilk və yeganə azərbaycanlı zabitdir.
Rəhim Hüseynov 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlayan gündən qanlı döyüşlərə qatılaraq Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının düşməndən azad edilməsində xüsusi qəhrəmanlıq göstərərək 20 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə yüksəlib. Ölümündən sonra "Qarabağ" ordeni və "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub. Şəhid Rəhim Hüseynov İkinci Fəxri xiyabanda dəfn olunub.

**Rəhim Tanrı payı idi**

"Rəhim anadan olana kimi 4 övladımız olsa da, onlar yaşamadılar. Dörd uşaqdan sonra Rəhim dünyaya gəldi. Həmişə deyərdi ki, məni Allah 4 uşaqdan sonra sizə mükafat olaraq verib. Gərək elə yaşayam ki, mənimlə qürur duyasınız. Balam dediyi kimi də yaşadı. Vətənin də, bizim də başımızı uca etdi". Göz yaşının içində boğulan anası Həqiqət xanım Rəhimli günləri xatırlayıb xatirələri çözdü: "Rəhimin çox gözəl xasiyyəti var idi. Qarabağın azad olunacağına, vətənin bütövləşəcəyinə, ümumiyyətlə, gələcəyə çox ümidlə baxırdı. 2016-cı ilin Aprel döyüşlərində də iştirak etmişdi. Rəhim həmişə deyərdi ki, Qarabağ problemi tezliklə həll olunmalıdır. Bu problemi övladlarımıza saxlamağa bizim haqqımız yoxdur".
Şəhidin oğlu Hikmət söhbətə qoşulur: "Son dəfə Qubadlıdan zəng etmişdi. Anama sevinclə strateji əhəmiyyətli yüksəkliklər uğrunda döyüşdüklərini, tezliklə Şuşadan şad xəbər verəcəyini dedi… Anam da çox sevinirdi, qürurlanırdı".
Rəhim ön cəbhədə irəliləyib düşmənin canına vəlvələ salan taborun komandiri olub. Döyüşü izləyən yox, öndə gedən komandir olub. Qubadlıda strateji əhəmiyyətli yüksəkliyi düşməndən azad edən zaman Rəhimin taboru ciddi müqavimətə rast gəlib. Qanlı döyüşlər getdiyi zaman Rəhimin yanına minaatan mərmisi düşüb. Zərbənin dalğası nəticəsində Rəhimin bir qulağından qan gəlib. Eşitmə qabiliyyətini itirsə də, döyüş yoldaşlarının müalicə almaq üçün geriyə, hospitala göndərilməsi haqqında təkliflərinə inadla "yox" deyib. Lakin düşmən mərmisi öz işini görüb. Rəhim atılan atəş səslərinin haradan gəldiyini hiss etməyib, irəliyə zirvəyə doğru can atıb. Düşmən bunu yaxın məsafədən görüb hiss edib. Döyüş yoldaşlarının onu düşmənin hədəf alması barədə çağırışlarını eşitməyən qəhrəman komandir qəfil düşmən snayperinin gülləsinə tuş gəlib…
Rəhimin uğrunda canını fəda etdiyi yüksəkliyi döyüş yoldaşları onun şərəfinə "Rəhim zirvəsi" adlandırıblar.